Azerbaijani Zəbur - WP Praying Psalms

Zəbur 68:1 Jehovah qalxsın, qoy düşmənlər dağılsın, Ona nifrət edənlər qarşısından qaçsın,

Zəbur 5:9,10 Onların dillərində düz söz yoxdur, Ürəkləri pis niyyətlə doludur. Boğazları açıq qəbirdir, Dilləri yalan danışır. 10 Ey Jehovah, onları təqsirkar çıxar, Qoy niyyətlərinə görə bu şər insanlar yıxılsın. Onları saysız günahlarına görə qov, Çünki Sənin əleyhinə qalxıblar.

Zəbur 11:6 Pislərin üstünə odlu köz, kükürd yağdırır, Onların kasalarına düşən pay səmum yeli olacaq.

Zəbur 18:14 Oxlarını atıb düşmənləri darmadağın etdi, Şimşəyini çaxdırıb onları dağıtdı.

Zəbur 18:17 Məni qüvvətli düşmənimdən azad etdi, Çünki yağılarım məndən güclü idi.

Zəbur 18:39 Döyüş üçün məni qüvvə ilə bürüdün, Əleyhdarlarımı ayağımın altına saldın.

Zəbur 18:45 Yadellilərin cəsarəti qırıldı, Titrəyərək sığınacaqlarından çıxdılar.

Zəbur 27:11 Ya Rəbb, yolunu mənə öyrət, Düşmənlərimdən ötrü mənə düz yolda rəhbərlik et.

Zəbur 35:1-8 Ya Rəbb, mənimlə çəkişənlərlə Sən çəkiş. Mənimlə döyüşənlərlə Sən döyüş. 2 Qalxan və sipərini əlinə al, Qalx, mənim imdadıma çat. 3 Nizəni tutub ardımca düşənlərin yolunu kəs, Qəlbimə söylə: «Səni qurtaran Mənəm». 4 Canımın qəsdinə duranlar Qoy utanıb rüsvay olsunlar, Mənə qarşı pis niyyəti olanlar Geri qovulub biabır olsunlar. 5 Saman çöpü tək olsunlar, onları yel sovursun, Rəbbin mələyi onları silib atsın. 6 Qoy yolları zülmət, sürüşkən olsun, Qoy Rəbbin mələyi onları qovsun. 7 Çünki nahaq yerə mənə tələ qurdular, Nahaqdan canım üçün quyu qazdılar. 8 Qoy başlarına qəfil fəlakət gəlsin, Qurduqları tələyə özləri düşsün, Hazırladıqları bəlaya düçar olsunlar.

Zəbur 52:5 Jehovah səni əbədilik qıracaq, Yaxandan yapışaraq evindən çölə atacaq, Dirilər arasından kökünü qoparacaq. Sela

Zəbur 60:12 Jehovahın köməyi ilə igidlik edəcəyik, O, düşmənlərimizi tapdalayacaq!

Zəbur 66:3 Siz Jehovaha belə deyin: «Əməllərin nə qədər zəhmlidir! O qədər qüdrətlisən ki, Düşmənlərin qarşında diz çökür!

Zəbur 68:35 Müqəddəs məkanında olan ey Jehovah, zəhmlisən! İsrailin Jehovahı Öz xalqına qüdrət, qüvvət verir. Jehovaha alqış olsun!

Zəbur 70:1 Ey Jehovah, məni xilas et, Ya Rəbb, dadıma tez çat!

Zəbur 71:13 Qoy məni ittiham edənlər utanıb məhv olsun, Bədxahlarımı xəcalət, rüsvayçılıq bürüsün.

Zəbur 76:12 O, hökmdarların nəfəsini kəsər, Dünya padşahlarını vahimələndirər.

Zəbur 118:10 Bütün millətlər məni mühasirəyə aldılar, Rəbbin ismi ilə onları qırdım.

Zəbur 118:12 Arılar tək məni mühasirəyə aldılar, Lakin kol-kos kimi alışıb tez söndülər, Rəbbin ismi ilə onları qırdım.

Zəbur 149:8,9 Padşahlarına zəncir vursunlar, Sərkərdələrini dəmir buxovlara salsınlar. 9 Onlar üçün yazılan hökmü yerinə yetirsinlər, Rəbbin bütün möminləri bununla şərəflənsinlər.

Pastor T. John Franklin
Church of Salvation, Healing, and Deliverance
COS-HAD.org